

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 fevral 2024-cü il №10 (2821) https://mod.gov.az Qiyməti 30 qəpik


## Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmət

*Xalqları dünyada məşhurlaşdıran zəngin təbii sərvətləri və maddi mədəniyyət inciləri ilə yanaşı, həm də dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir. Fenomen şəxsiyyətin müəyyənləşdirdiyi yol millətin strateji inkişaf konsepsiyasına çevrilməklə dünyada da özünə layiqli yer tutmasını təmin edir.*



Belə nadir şəxsiyyətlərdən biri, müasir müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirib.

2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciətində demişdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu Öndərin xalqımıza özünün layiqli davamçısı kimi təqdim etdiyi yeni əsrin yeni lideri olan İlham Əliyevin 20 ildən çox prezidentlik fəaliyyəti bu fikrin təxmin deyil, qəti qənaət olduğunu sübut etdi. Ötən 20 il onu göstərdi ki, Prezident İlham Əliyev həm Ulu Öndərin axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları reallaşdırdı, həm də Azərbaycanı güclü, nüfuzlu, müstəqil siyasət aparan dövlətə çevirdi. Ən əsası hakimiyyətinin 20-ci ilində İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsinə nail oldu. Bu gün Azərbaycan bütövdür, işğal altındakı bütün ərazilər azad olunub, suverenliyimiz təmin edilib, üçrəngli bayrağımız bütün ərazilərimizdə dalğalanır.

İlham Əliyev Prezident kimi andiçmə mərasimində ona göstərilən etimada görə xalqa minnətdarlığını bildirdi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasətinə sadiq qalacağını bir daha bəyan etdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Azərbaycan xalqının Ümummilli Liderinin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır.

Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasət öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı son dərəcədə artdı. Onun rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir, onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşırlar.

Prezident İlham Əliyev iyirmi illik fəaliyyəti dövründə xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, müasir ordumuz yaradılıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yeni əsrin yeni lideri olaraq Azərbaycanı inamla irəli aparır. Onun hakimiyyət illəri ölkənin dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyəvidir. Prezidentimiz mötəbər beynəlxalq təşkilatların - BMT-nin, NATO-nun, ATƏT-in kürsülərində inamlı, cəsarətli, məntiqi çıxışları ilə diqqəti cəlb edir, milli mənafeləri bütün səviyyələrdə qətiyyətlə qoruyur, müstəqil xarici siyasət yürüdür. Qlobal böhranlardan çıxış yolları axtarışında onun fikrinə, rəyinə hörmətlə yanaşılır.

Ötən 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirilib. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq ədalətli müharibəyə başladı və tarixi qələbə qazandı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Şuşanın noyabrın 8-də işğaldan azad edilməsi tariximizə şanlı Zəfər Günü kimi yazıldı. Bundan iki gün sonra işğalçı Ermənistan məğlubiyyət sənədini imzaladı. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycanın özü icra etdi.

Əsrə bərabər 20 ilin fövqündə işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə işğalçı Ermənistan üzərində qazandığımız bu tarixi Zəfər XXI əsrdə dünyada qələbə ilə başa çatmış ən ədalətli müharibə nümunəsidir. Azərbaycanın Vətən müharibəsi beynəlxalq aləmdə yeni müharibə texnologiyasının tətbiqi ilə aparılmış müharibə kimi də təkrarsızdır. 30 ilə yaxın davam edən işğala son qoyan bu böyük Qələbə xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Bu, dünya hərb tarixində ən qısa müddətdə qələbə ilə başa çatmış müharibə olaraq da əhəmiyyətlidir. 19-20 sentyabr 2023-cü il tarixdə Qarabağda keçirilmiş əməliyyat tədbirləri ilə qüdrətli dövlət rəhbəri olan İlham Əliyev daha bir mühüm tarixi zəfərə imza atmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəsinin tarixi torpaqlarını düşmən əsarətindən azad edən, rəhbərlik etdiyi dövlətin tam ərazi bütövlüyünə nail olmağı bacaran liderdir. Müzəffər sərkərdənin rəhbərliyi altında qazanılan Qələbə sayəsində regionda yeni reallıqlar yarandı.

Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqa müntəzəm müraciətlər edirdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu bir yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin başlanğıcına çevrildi.

**(Ardı 3-cü səhifədə)**

# Prezident İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olublar







*Fevralın 9-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olub, silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu izləyiblər.*

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verib.

Prezident İlham Əliyev PUA Akademiyasında yaradılan şəraitlə tanış olub.

Zakir Həsənov və Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar dövlətimizin başçısına Akademiyada yaradılan şərait və pilotsuz uçuş aparatları barədə məlumat veriblər. Bildirilib ki,



burada hərbi qulluqçuların hazırlığı üçün hər cür şərait yaradılıb. Akademiya müasir standartlara cavab verən bütün növ zəruri texnika və avadanlıqlarla təchiz olunub.

Sonra Ali Baş Komandan hərbi obyektdə müxtəlif tipli PUA üçün uçuş-enmə zolağına gəlib. "Akıncı" hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gələn Prezident İlham Əliyev burada PUA-nın idarəolunmasını praktiki həyata keçirib.

PUA-nın yerə enməsini izləyən Azərbaycan Prezidenti uçuş vasitəsinin üzərinə xatirə imzasını çəkib.

Daha sonra Prezident İlham Əliyev anqar komplekslərinə baxış keçirib.

Anqarlar müxtəlif tipli pilotsuz uçuş aparatları, eləcə də silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-sı və digər aviasiya-texniki vasitələrin saxlanılması üçün nəzərdə tutulub.

Müzəffər Ali Baş Komandan burada "Akıncı" hücum PUA-sı və aviabombaları ilə də tanış olub.

Sonra birgə foto çəkdirilib.











## Leyla Abdullayeva: Azərbaycanın niyyəti regionda sabitliyin və sülhün bərqərar olunmasına töhfə verməkdir

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva bu ölkənin aparıcı ali təhsil ocaqlarından biri olan Siyasi Elmlər Universitetinin (Science Po de Paris) Asiya Assosiasiyasının tələbələri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə səfir tələbələrə Azərbaycanın zəngin tarixi, coğrafiyası, mədəni irsi, xarici siyasəti və regionda mövqeyi haqqında ətraflı məlumat verib.

Diplomat Avropa ilə Asiya arasında çox mühüm geosiyasi məkanda yerləşən Azərbaycanın daim müstəqilliyi uğrunda mübarizə aparmasından söz açıb. Ölkəmizin müsəlman Şərqində ilk demokratik və dünyəvi respublika olduğundan, bu respublikanın Şərqdə ilk dəfə qadınlara seçib-seçilmək hüququ verilməsindən, bu gün ölkədə bütün sahələrdə gender bərabərliyinin təmin edilməsindən danışıb. Bildirib ki, ötən əsrin 90-cı illərində müstəqilliyini bərpa edən Azərbaycan elə ilk gündən Ermənistanın hərbi təcavüzü ilə üzləşib.

Otuz il davam edən erməni işğalı zamanı ölkəmizin münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışdığını deyən səfir qeyd edib ki, münaqişənin həlli həvalə edilmiş ATƏT-in Minsk Qrupunun fəaliyyətsizliyi, eləcə də Ermənistanın hərbi təxribatları Azərbaycanı torpaqlarını müharibə yolu ilə azad etməyə məcbur edib.

2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz sayəsində işğal altındakı ərazilərimiz azad edilib. Səfir qeyd edib ki, bununla da Azərbaycan regionda yeni reallıqlar yaradıb. Ölkəmizin niyyəti regionda sabitliyin və sülhün bərqərar olunmasına töhfə verməkdir.

Səfir, həmçinin müstəqilliyini bərpa edən Azərbaycanın xilaskarı, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkə iqtisadiyyatını yenidən dirçəltməsindən, "Əsrin müqaviləsi"nin imzalanmasından, dünyanın nəhəng şirkətlərinin ölkəmizə cəlb edilməsindən söz açıb.

Diqqətə çatdırılıb ki, Azərbaycanın reallaşdırdığı nəhəng enerji layihələri Avropa İttifaqının enerji təhlükəsizliyinə böyük töhfələr verib. Tələbələr, eyni zamanda, Prezident İlham Əliyevin təşəbbüsü olan "Yaşıl enerji" strategiyası, enerji mənbələrinin şaxələndirilməsi, bərpaolunan enerjinin önəmi barədə məlumatlandırılıb. Vurğulanıb ki, Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolların üzərində yerləşən Azərbaycan qitələri birləşdirir və regionun nəqliyyat-logistika mərkəzinə çevrilib. Qeyd edilib ki, qlobal miqyasda siyasi, iqtisadi və ekoloji çətinliklərin hökm sürdüyü bu dövrdə bir çox ölkələrin maraq dairəsində olan Zəngəzur dəhlizi regionun, eləcə də 3 qitənin - Avropa, Asiya və Afrika qitələrinin iqtisadi inkişafına mühüm töhfələr verəcək.

# Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmət

(Əvvəli 1-ci səhifədə)



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həm döyüş meydanında, həm də siyasi arenada öz gücünü, qüdrətini bütün dünyaya göstərdi. Vətən müharibəsi dövründə dövlət başçısı informasiya cəbhəsində Ermənistanın bütün təbliğatının üzərindən dünyanın aparıcı media qurumlarına müsahibələri ilə xətt çəkdi. Prezident İlham Əliyev istər xalqa müraciəti, istər tviter paylaşımları, istərsə də bu müddətdə verdiyi 30-a yaxın müsahibəsi ilə bütün dünyada Azərbaycanın haqlarının müdafiəsinə, carçısına çevrildi.

Son 20 il ərzində Azərbaycan dünyada həm də mühüm beynəlxalq tədbirlərin, yarışların keçirildiyi ölkə kimi tanınıb. Bakı "Eurovision" mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula 1" yarışlarına, futbol üzrə Avropa çempionatının final mərhələsinin bir neçə oyununa ev sahibliyi edib. Ötən dövr Azərbaycanda bütün sahələrin inkişaf etməsi ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrlik edib. Təşkilata sədrlik müddətinin daha bir il artırılması Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir. Bu gün Azərbaycan dünyanı həm də azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işləri ilə heyrətləndirir. Bu ərazilərdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir. Prezident İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışında iştirak edir, yenilərinin təməlini qoyur. Qarabağ və Şərqi Zəngəzur tezliklə cənnətə çevriləcək, keçmiş məcburi köçkünlər qısa müddətdə doğma yurdlarına qayıdacaqlar.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son 20 ildə böyük inkişaf yolu keçib. 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 42 yaşında idi və demişdi: "Mən hər bir azərbaycanlının Prezidenti olacağam". Hazırda ömrünün 63-cü ilində İlham Əliyev cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderdir. Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb, ona arxa-dayaq olub. Prezidentimizin özünün də böyük fəxrlə qeyd etdiyi kimi, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır.

Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər çoxəsrlik milli dövlətçilik tariximizə bənzəri olmayan qızıl dövr kimi düşüb. Bu illər əsrlərlə bölünsə də, ağır məhrumiyyətlərə məruz qalsa da, öz qürurunu və milli dövlətçilik ənənələrini qoruyub saxlamış Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi illəri olub. Məhz buna görədir ki, ötən dövr ərzində keçirilmiş 5 prezident seçkisində Azərbaycan xalqı öz gələcəyini yalnız Prezident İlham Əliyevə etibar edib. Xalqımız hər zaman Prezident İlham Əliyevə dəstək olur, ətrafında sıx birləşərək ardınca irəliyə doğru addımlayır.

Fevralın 7-də ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri xalqımızın yüksək əhval-ruhiyyəsi və fəallığı şəraitində başa çatdı. Prezident seçkilərində cənab İlham Əliyev inamlı qələbə qazanaraq növbəti müddətə dövlət başçısı seçildi.

Respublikamızda ilk dəfə idi ki, seçkilər ölkəmizin ərazi bütövlüyünün bərpası və suverenliyinin qazanılması şəraitində keçirildi. Bu qələbə xalqın öz liderinə sarsılmaz inamından qaynaqlanmaqla, son 20 ildə görülən işlərə, qazanılan uğurlara verilən dəyərdir. Bu gün hər bir Azərbaycan vətəndaşı qürur duyur ki, ölkəmizə dünyada çox böyük hörmət və nüfuz sahibi olan cənab İlham Əliyev rəhbərlik edir.

Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad Müzəffər Ali Baş Komandanımızın "Qarabağ Azərbaycandır!" şüarının növbəti təcəssümü olaraq ölkəmizin qüdrətini, ordumuzun gücünü və xalqımızın qələbə əzmini bir daha bütün dünyaya nümayiş etdirdi.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Hərbi İdarəetmə İnstitutunda intensiv xarici dil kurslarının buraxılış mərasimi keçirilib

*Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda intensiv xarici dil kurslarının başa çatması ilə əlaqədar növbəti buraxılış mərasimi keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Buraxılış mərasimində çıxış edən Hərbi İdarəetmə İnstitunun rektoru, polkovnik Bəbir Quliyev kursu müvəffəqiyyətlə bitirən iştirakçıları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Məzunlar adından çıxış edənlər kurs müddətində yaradılan şəraitə görə Müdafiə Nazirliyinin rəhbərliyinə, eləcə də əməyi olan professor və müəllim heyətinə dinləyicilər adından dərin minnətdarlıqlarını bildiriblər.

Sonda kursu bitirən məzunlara sertifikatlar təqdim olunub, xatirə şəkli çəkdirilib.

# Xocalıda kütləvi məzarlıq aşkar edilib





*İşğaldan azad olunan Xocalı rayonunda kütləvi məzarlıq aşkar edilib.*

Əsgəran qalasının yaxınlığında aşkarlanan məzarlıqda azı 8 insan qalığı var. Qalıqların Xocalı faciəsi zamanı qətlə yetirilən sakinlərə məxsus olması ehtimal edilir.

Hazırda müvafiq qurumların nümayəndələri jurnalistlərin iştirakı ilə kütləvi məzarlığa baxış keçirirlər.

* * *

1992-ci ilin fevralında dinc Xocalı sakinlərinin qətlində iştirakçı olmasını etiraf edən Rəşid Deqlaryan istintaq hərəkətləri zamanı Xocalıdan Ağdam istiqamətində hərəkət edən dinc əhalinin Əsgəran qalası yaxınlığında pusquya salınaraq qətlə yetirilməsi və meyitlərinin həmin ərazidə qalanın yaxınlığında basdırılması barədə məlumat verib.

Bunu Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun əməkdaşı Zaur İsmayılov jurnalistlərə müsahibəsində deyib.

Bildirib ki, bununla bağlı Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən ötən ilin oktyabr-noyabr aylarında axtarış-qazıntı işlərinə start verilib, lakin əlverişsiz hava şəraiti səbəbindən işlər başa çatdırılmayıb. Cari ilin fevralından başlayaraq qazıntı işləri davam etdirilib və nəticədə Xocalı sakinlərinə aid olması ehtimal edilən kütləvi məzarlıq aşkar edilib. Mütəxəssislərin ehtimalına görə burada azı 8 şəxsə aid insan qalıqları var. Bundan sonra burada davam etdiriləcək axtarış işləri nəticəsində bu rəqəmin artacağı istisna olunmur.

Növbəti mərhələdə insan qalıqları eyniləşdirilməsi məqsədilə aidiyyəti laboratoriyalara təhvil veriləcək və kimliyi müəyyən olunduqdan sonra nəticəsi barədə ictimaiyyət məlumatlandırılacaq.

Qeyd edək ki, yerli və xarici media nümayəndələri Əsgəran qalası yaxınlığında aşkar edilən kütləvi məzarlıq olan ərazidə olublar. İstintaq hərəkətləri zamanı çəkilən videorolikə baxış keçirilib.

**AZƏRTAC-ın**
**materialları əsasında**

# Milli Qəhrəmanın doğum gününə həsr olunmuş mərasimlər keçirilib





*Torpaqlarımızın müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksələn Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun anadan olmasının ildönümünə həsr olunmuş anım mərasimləri keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə Müdafiə Nazirliyinin, Biləsuvar rayon İcra Hakimiyyətinin, Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksinin və ictimaiyyətin nümayəndələri, müəllim-şagird heyəti, eləcə də digər qonaqlar iştirak ediblər.

Hərbi qulluqçular igidimizin məzarını ziyarət edərək üzərinə gül dəstələri qoyub, xatirəsinə ehtiram nümayiş etdiriblər.

Anım mərasimlərində əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Çıxış edənlər M.İbrahimovun göstərdiyi şücaət və igidlik nümunələrindən, qəhrəmanımızın Vətən yolunda canından keçərək gənclərə örnək olacaq bir addım atmasından danışıblar. M.İbrahimovun göstərdiyi rəşadətin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyi xüsusi qeyd olunub.

Həmçinin hərbi qulluqçularımız tərəfindən şəhidimizin doğulub boya-başa çatdığı Biləsuvar rayonundakı evi də ziyarət olunub.

Milli Qəhrəmanın ailə üzvləri M.İbrahimov haqqında xatirələrini bölüşüblər, şəhidlərə göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandana, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Milli Qəhrəmanın doğum gününə həsr olunmuş mərasimlər çərçivəsində şeirlər səsləndirilib, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən tədbir iştirakçılarına vətənpərvərlik mövzusunda musiqilər təqdim olunub.



# "Gizir hazırlığı kursu"nun növbəti buraxılış mərasimləri keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunda "Gizir hazırlığı kursu"nun növbəti buraxılış mərasimləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Çıxış edənlər məzunları kursu müvəffəqiyyətlə bitirmələri münasibətilə təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Məzunlar da, öz növbəsində, kurs müddətində qazandıqları bilik və bacarıqlarını daha da təkmilləşdirərək xidmət yerlərində tətbiq edəcəklərinə, üzərilərinə düşən vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə söz veriblər.



Sertifikatların təqdimatı və kurs birinciləri tərəfindən yaş kötüyünə rəmzi emblem vurulduqdan sonra şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

# Əlahiddə Ümumqoşun Orduda 2024-cü tədris ilinin ilk dərs və məşğələləri keçirilir



"Əlahiddə Ümumqoşun Ordunun 2024-cü tədris ilinin döyüş hazırlığı planı"na əsasən keçirilən dərs və məşğələlərdə qoşunların müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilmə zamanı şəxsi heyət tərəfindən vəzifələrin öyrənilməsi, bölmələrin tapşırıqlarının dəqiqləşdirilməsi, həyəcan siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarına çıxarılması, gizli idarə olunması və qəfil ortaya çıxan tapşırıqların vaxtında icra olunması məşq etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəxsi heyətin bilik və bacarıqlarının artırılması, bölmələrin döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması, dayanıqlı, fasiləsiz və operativ idarəedilməsinin



təmin edilməsi məqsədilə keçirilən dərs və məşğələlər tədris ili dövründə mütəmadi olaraq davam etdiriləcək.

# Baş Klinik Hospitalın Həmkarlar İttifaqının IX hesabat-seçki konfransı keçirildi



Müdafiə Nazirliyi Baş Klinik Hospitalın Həmkarlar İttifaqının IX hesabat-seçki konfransı keçirildi. Konfransda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, MN Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin, Dövlət Qulluqçuları Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələri, hospitalın həmkarlar ittifaqının üzvləri və başqa qonaqlar iştirak etdilər.

Konfransda əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra konfransın katibliyi seçildi. Konfransın gündəliyi barədə məlumat verildi.

Baş Klinik Hospitalın Həmkarlar İttifaqının sədri Stefan Kropoçev 23 aprel 2019-cu ildən 8 fevral 2024-cü ilədək olan dövr üçün HİK-nin işi haqqında məruzə ilə çıxış etdi. Bu müddətdə görülən işlər barədə geniş məlumatları konfrans iştirakçılarının diqqətinə çatdırdı. Xüsusilə, fəaliyyət istiqamətlərində yer alan şəhid ailələrinə və müharibə əlillərinə, iştirakçılarına göstərilən diqqət və qayğıdan danışdı. O, həmkar üzvlərinin sosial vəziyyətinin yaxşılaşdırılması, iş həyatında yaranan problemlərin aradan qaldırılmasında işçiyə verilən tövsiyələrdən də geniş və izahlı formada məlumatlar verdi.

Sonra konfrans iştirakçıları MN BKH Həmkarlar İttifaqı Komitəsinin 23 aprel 2019-cu ildən 8 fevral 2024-cü ilədək olan dövr üçün təftiş komissiyasının işi barədə geniş məruzəni dinlədilər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Hikmət Osmanov, MN Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Zakir Müslümov çıxış edərək, konfransın gündəliyində dayanan məsələlər barədə ətraflı müzakirələr apardılar, məruzələrdə səsləndirilən və həmkar üzvlərini maraqlandıran məsələlərə aydınlıq gətirdilər. Hər bir işçinin hüququnun qorunmasında həmkarların rolunu açıqladılar. Konstruktiv-dialoq şəklində keçirilən diskussiyalar zamanı həmkar üzvlərinin səsləndirdiyi sualları ətraflı cavablandırdılar.



Fəhlə və qulluqçuların əməyinin mühafizəsi, onların əmək hüquqlarının və qanuni maraqlarının müdafiəsi, o cümlədən işçinin sosial müdafiəsinin təminatı haqqında geniş məlumatlar diqqətə çatdırıldı. Konfransda HİK-də tərbiyəvi və mədəni-kütləvi iş, təşkilati-kütləvi iş barədə də danışıldı.

Sosial müdafiə təminatı istiqamətində görülən işlərdən danışılarkən bildirildi ki, yubilyarlara, fərqlənən işçilərə mükafatlar, müharibə veteranlarına, şəhid ailələrinə, aztəminatlı ailələrə, uzun müddət xəstə olan işçilərə və yaxın qohumları rəhmətə gedənlərə maddi yardımlar nəzərdə tutulmuşdur.

İşgüzar şəraitdə keçən konfransda həmkar üzvlərinin çıxışları da maraqla dinlənildi, müzakirələrə xüsusilə diqqət ayrıldı.

IX hesabat-seçki konfransının sonunda Baş Klinik Hospitalın Həmkarlar İttifaqının iş və fəaliyyəti qənaətbəxş hesab olundu.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# “Qars müqaviləsindən Naxçıvan dəhlizinə və dünyaya”

*Azərbaycan Hərb Tarixi Muzeyində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyinə həsr olunmuş "Qars müqaviləsindən Naçıvan dəhlizinə və dünyaya" adlı elmi seminar keçirildi.*

Tədbirdə Müdafiə Nazirliyinin idarə və təşkilatlarının, hərbi və mülki təhsil müəssisələrinin kursant və tələbələri, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.



Seminarda Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə "Qars müqaviləsindən Naxçıvan dəhlizinə və dünyaya" adlı məruzə ilə çıxış edərək bildirdi ki, Qars müqaviləsi mühüm tarixi əhəmiyyətə malik beynəlxalq müqavilədir. "Bu müqavilə ilə Naxçıvanın statusu təsbit olunmuş və tərəflər Naxçıvanın muxtar respublika kimi Azərbaycanın tərkibində qalması məsələsində razılığa gəlmişlər.



XX əsrin əvvəllərində Antanta dövlətləri Rusiya və Türkiyə dövlətlərinə qarşı mübarizə aparırdı. Belə vəziyyət Rusiya ilə Türkiyəni birgə mübarizə üçün yaxınlaşdırdı. 1921-ci il martın 16-da "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi 16 maddədən və 2 əlavədən ibarət qəbul edilmişdi. Müqavilənin 3-cü maddəsinə əsasən, Naxçıvan vilayəti bu müqavilənin 1(C) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir.

Naxçıvanın statusu məsələsi Rusiya ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsi ilə müəyyən edilmişdi...".

Muzey rəisi qeyd etdi ki, Qars sülh müqaviləsi Moskva sülh müqaviləsinin tələblərinin yerinə yetirilməsi çərçivəsində Azərbaycan, Ermənistan və Gürcüstanın daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə arasında 1921-ci il oktyabrın 13-də imzalanıb və 1922-ci il sentyabrın 11-də qüvvəyə minib.

Adətən, Qars müqaviləsi ilə təsdiq edilmiş Naxçıvanın muxtariyyət statusu Moskva müqaviləsindəki 3 məsələdən bir qədər fərqlidir. Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin V maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdi - bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdu. Müqavilənin bu maddəsində göstərilirdi ki, "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet Respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər".

Məkrli qonşularımız Qars müqaviləsi ilə tərəf kimi Naxçıvanın muxtariyyət statusuna, ərazi-sərhəd məsələlərinə imza atmışdır. Bununla belə, bu gün də o, Naxçıvanla bağlı əsassız iddialarından əl çəkmir. Bir həqiqət vardır ki, Qars müqaviləsi müddətsiz imzalanmışdır. O, birtərəfli qaydada ləğv oluna bilməz və bu müqavilə Naxçıvanın qarantı rolunu oynayır.

Qars beynəlxalq müqaviləsi ilə Naxçıvan vilayəti Azərbaycanın tərkibində muxtar ərazi statusu əldə etmişdir. Bu müqavilə ilə Türkiyə və Cənubi Qafqaz respublikaları Moskva müqaviləsini qəbul etmiş, Rusiya da Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanımış və ona beynəlxalq hüquqi təminat vermişdir".

Muzeyin tədqiqatçı baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov "Azərbaycanın dövlət müstəqilliyinin bərpası və möhkəmlənməsində Naxçıvan MR-nın yeri və rolu" adlı məruzəsində vurğuladı ki, Ulu Öndər Heydər Əliyev Naxçıvanın ərazi bütövlüyünü və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini daim yüksək qiymətləndirərək demişdir: "Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olub. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".

Vətən müharibəsində Azərbaycanın möhtəşəm qələbəsi Avrasiyanın geoiqtisadi xəritəsində yeni imkanlar yaratdı. Beynəlxalq nəqliyyat sisteminin yenidən qurulması bir çox Asiya ölkələri üçün, eləcə də Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan üçün çox əhəmiyyətlidir.

Elmi seminarda çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 30 dekabr 2023-cü il tarixli Sərəncamı muxtar respublika tarixində əlamətdar hadisə olmaqla yanaşı, Naxçıvanın ölkənin tarixində, eləcə də ictimai-siyasi, elmi-mədəni həyatında rolunu diqqətə çatdırdılar.



Elmi seminarda Naxçıvana həsr olunmuş sənədli film nümayiş olundu.

Tədbir Hezi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin təqdim etdiyi hərbi vətənpərvərlik mahnıları ilə başa çatdı.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Vətən müharibəsi - qəhrəmanların qisas mübarizəsi

*"N" hərbi hissəsində "Dəmir Yumruq" abidəsinin önündə yığılan şəxsi heyət əvvəlcə ötən əsrin sonlarından günümüzə qədər ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların ruhlarına ehtiram əlaməti olaraq əsgəri salam verdilər.*



İkinci Qarabağ müharibəsinin iştirakçısı kapitan Seymur Verdiyevdən öyrəndim ki, zabit ideoloji işin tərkib hissəsi olaraq əsgərlərə 44 günlük haqq savaşı barədə təəssüratlarını çatdırır, onların bu mövzu haqqında məlumatlarını artırır. Zabit deyir ki, bu məlumatlar onların xidməti fəaliyyəti dövründə ruh yüksəkliyinə mühüm təsir edəcək.

Əsgər Elşən Şatanov "44 günlük Vətən müharibəsi nə vaxt və necə başladı?" sualını qürurla cavablandırdı, sonda şəhidlərimizin qəhrəmanlıqlarını da xüsusi qeyd etdi. "2020-ci il sentyabrın 27-si hər bir azərbaycanlının xatirəsində yaşayacaq müqəddəs və ali tarixdir. Mənfur qonşularımızın həmin tarixdə törətdiyi təxribat nəticəsində soydaşlarımızın cəmləşdiyi yaşayış məntəqələri və ordumuzun yerləşdiyi döyüş mövqeləri şiddətli atəşə məruz qalmışdı ki, nəticədə dinc sakinlərimiz, o cümlədən azyaşlılar və hərbçilərimiz şəhid oldular. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı başladı, düşmənə layiqli cavab verildi. İgid qardaşlarımız düşmənin müdafiə xəttini qısa zamanda yardı. Müharibənin ilk günündə rəşadətli ordumuz Ermənistan silahlı birləşmələrinin uzun illər qanunsuz məskunlaşıb möhkəmləndirdiyi mövqelərini qısa vaxtda darmadağın etdi. Üçrəngli şanlı bayrağımız tarixi yurd yerlərimizdə dalğalanmağa başladı. Hər qarışı qanla alınan doğma Vətən torpaqlarında silinməz tarix yazan oğullarımıza hər zaman borcluyuq. Məlumdur ki, 27 sentyabr tarixi Azərbaycan Respublikasında Anım Günüdür. Biz bu günümüzü də, qələbəmizi də o günlərimizi əbədiləşdirən oğullarımızla qürur duyuruq. Onlar hər birimiz üçün əzizdir və doğmadır. Bu gün xalqımız firavan yaşaya bilirsə, biz Vətənə övladlıq borcumuzu şərəflə yerinə yetirə biliriksə, bunu qəhrəman şəhidlərimizə borcluyuq".

İkinci Qarabağ müharibəsinin tarixi xronologiyası haqqında sualı cavablandıran əsgər Elnur Əliyev dedi: "Azərbaycan Ordusunun dəqiq və sarsıdıcı zərbələri nəticəsində düşmən ilk günlərdən məğlub olurdu. Qalib ordumuzun igid əsgərləri mətin addımlarla hər gün mövqe qələbələri qazanırdılar. Strateji yüksəkliklər və əlverişli mövqelər işğaldan azad olunurdu. Əməliyyat boyunca yüzlərlə kəndimiz, yaşayış məntəqəmiz vəələxüsus oktyabrın 4-də Cəbrayıl, oktyabrın 17-də Füzuli, oktyabrın 20-də Zəngilan, oktyabrın 25-də Qubadlı və noyabrın 8-də Şuşa şəhərləri işğaldan azad olundu. Şuşa şəhərinin işğaldan azad olunması düşmənin belini qırdı.

Sıldırım qayaları aşaraq, düşməni məhv edən Azərbaycan əsgəri Vətən müharibəsini Zəfərlə başa çatdırdı. Düşmən çıxış yolunu təslim olmaqda və kapitulyasiya aktını imzalamaqda gördü. İmzalanmış sənədə əsasən, Kəlbəcər, Ağdam və Laçın rayonları döyüşsüz bizə - o yerlərin həqiqi sakinlərinə qaytarıldı. 44 günlük haqq savaşımız ilə xalqımızın Vətən həsrətinə son qoyuldu. Bu gün həmin yerlərdə sürətlə quruculuq və bərpa işləri gedir. Artıq yüzlərlə soydaşımızın öz doğma yurduna qayıtması ilə Vətən torpağına həyat da qayıdıb".

Əsgər Bəhram Xəlilov Vətən müharibəsindəki mənfur düşmənin törətdiyi cinayətlərdən söhbət açdı: "Məlumdur ki, döyüş meydanında zərrə qədər də uğur qazana bilməyən düşmən döyüş meydanından kənarda mülki vətəndaşlarımıza qarşı insanlığa sığmayan əməllər törətməklə özünə təsəlli verməyə çalışdı. Gəncə, Bərdə, Ağdam, Füzuli, Mingəçevir, Goranboy və digər ərazilərimiz ballistik raketlərlə hücuma məruz qaldı. Nəticədə yüzlərlə mülki vətəndaşımız, aralarında azyaşlılar olmaqla erməni terrorunun qurbanı oldu. Minlərlə ev yararsız vəziyyətə düşdü. Dünya buna ciddi ədalətli münasibət bildirmədi. Düşmən daha da azğınlaşa bilərdi. Azərbaycan Ordusu bunun qarşısını almalı idi. Nəticədə bölmələrimiz yüksək dəqiqlikli silah və texnikaların tətbiqi ilə həmin uzaqmənzilli raketlərin yerləşdiyi əraziləri aşkarlayaraq, hədəfləri zərərsizləşdirdi".

Əsgər Eşqin Manafov İkinci Qarabağ müharibəsində qazanılan tarixi qələbəni şərtləndirən amillərdən danışdı: "Ali Baş Komandanımızın qətiyyəti, xalqımızın əzmi və iradəsi, əsgərlərimizin döyüş ruhu qələbəmizi təmin edən əsas amillərdən oldu. Dəmir yumruq məhz bizim birliyimizin simvolu oldu. Döyüşlərdə bizə mənəvi dəstək olan dövlətləri də unutmaq olmaz. Beynəlxalq arenalarda dövlətimizin mövqeyini dəstəkləyən, təkzibolunmaz həqiqətləri dünyanın diqqətinə çatdıran qardaşlarımızın misilsiz xidmətini xüsusi qeyd etməliyik. Mən 44 günlük haqq savaşımız zamanı məktəbli idim. Lakin ermənilərin vandalları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarını və müsahibələrini diqqətlə izləyirdim. Hər gün zəfərə yaxınlaşdığımızı daha dərindən anlayırdım. Qalib ordumuzun bu günlərə gəlib çıxmasında danılmaz rolu olan şəxsiyyətlərdən biri də, şübhəsiz ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevdir. Tarixi uzun illərə dayanan ordu quruculuğu sahəsinin dövlət səviyyəsində prioritet istiqamət kimi seçilməsi məhz Uzaqgörən Lider Heydər Əliyevin fikri idi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə rəşadətli ordumuzun qazandığı Böyük Qələbənin əsasında məhz düzgün istiqamətlənmiş ordu quruculuğu siyasəti dayanırdı. Dövlətimizin hərtərəfli inkişafı, siyasi və iqtisadi sahədə əldə olunan uğurlar da qazanılan qələbənin əldə olunmasında böyük əhəmiyyətə malik faktorlardan oldu".

Ağdam rayonundan olan əsgər Vüqar Hüseynov işğaldan azad olunan ata yurduna gedəcəyi günün həsrətində olduğunu bildirdi: "Uşaq yaşlarımda ailədə o yerlərin gözəlliyi haqqında çox eşitmişdim. Lakin erməni vandalları oranı elə vəziyyətə salıblar ki, bu əməllər heç bir insanlığa sığmır. Məscidlərimizin vəziyyəti, minalanmış sahələr, bir sözlə, firavan şəhərimizi xarabalığa çevirən azğın düşmən əsil xislətini dünyaya bildirdi. Bu cür cinayətlərə dünyanın hələ də reaksiya verməməsi, antiazərbaycan qüvvələrin gördüyü işlərin nəticəsidir. Şükürlər olsun ki, Prezidentimiz İlham Əliyevin tapşırığı ilə tarixi yurd yerlərimizdə yenidənqurma, bərpa-quruculuq işləri görülür. Tezliklə orada həyat yenidən canlanacaq, insanlar yenə də öz doğma yurdlarında yaşayacaq və yaradacaqlar. Qəhrəman hərbçilərimizin şücaəti ilə azad edilən torpaqları bundan sonra bizdən heç kim ala bilməz. Atalarımızdan miras qalan Vətənimizi göz bəbəyimiz kimi qoruyacaq, Vətənə övladlıq borcumuzu vaxtından-vədəsindən və yerindən asılı olmayaraq ödəməyə hazırıq. Vətən müharibəsi şərəf və qisas mübarizəmiz oldu. Uzun illər yaşadığımız nisgil artıq yerini şərəfə verib. Şəhidlərimizin də ruhu artıq rahatdır, çünki qisas alınıb".

Əsgər Xasay Abbasov Vətən müharibəsində Qələbəyə gedən yolla bağlı bildiklərini bizimlə bölüşdü: "Tarixi torpaqlarımız 30 ilə yaxın düşmən işğalında qaldı. Soydaşlarımızın başlarına gətirilən müsibətlər, ermənilər tərəfindən törədilən vandallıqlar dünya ictimaiyyəti tərəfindən cavabsız qaldı. Beynəlxalq təşkilatların, dünyanın aparıcı dövlətlərinin ikili mövqeləri sərgiləməsi münaqişənin uzanması və vaxt itkisi ilə nəticələndi. Hətta BMT tərəfindən qəbul olunmuş məlum 4 qətnaməyə əsasən, ermənilər işğal etdikləri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalı idilər. Lakin dünya birliyinin 30 ilə bacarmadığını Azərbaycan əsgəri 44 günə bacardı. Tarixi ədaləti də bərpa etdi, məlum qətnamələri də icra etdi, şəhidlərimizin qisasını da aldı, torpaqlarımızı da işğaldan azad etdi. Bu gün Qalib Ordunun mundirini daşımaqdan qürur duyuram. Ən böyük arzum işğaldan azad olunan torpaqlarımızı ziyarət etməkdir. Bu qələbəni qazananlar hər zaman ən yüksək ehtirama layiqdirlər və bizlər də öz növbəmizdə onların xatirəsini uca tutmalı, yaxınlarını və doğmalarını öz əzizimiz bilməliyik".

**Kapitan**
**Fuad CƏFƏROV,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

## Ayxan Hacızadə: Ararat Mirzoyanın Azərbaycanı hədəf alan bəyanatını qətiyyətlə rədd edirik

Fevralın 8-də Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna qoşulmasına həsr olunmuş mərasimdə Ermənistanın Xarici İşlər Naziri Ararat Mirzoyanın Azərbaycanı hədəf alan bəyanatını qətiyyətlə rədd edir və pisləyirik.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ararat Mirzoyanın sözügedən mərasimdə çıxışına münasibət bildirərkən deyib.

Ayxan Hacızadə qeyd edib ki, nazirin çıxışı Ermənistanın Roma Statutuna qoşulmasının bu qurumlardan öz əsassız iddiaları, bədxah hərəkətləri, nifrət təbliğatı, dezinformasiya və beynəlxalq hüququn yanlış təfsiri üçün istifadə etmək cəhdi olduğunu bir daha nümayiş etdirir.

Beynəlxalq birliyin Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını ala bilməməsi və 30 ilə yaxın müddətdə ərazilərimizin işğalına son qoyulmaması, Ermənistan tərəfindən kütləvi vəhşiliklər və insanlıq əleyhinə cinayətlər törədilməsinə, Ermənistanın müharibəni qızışdıran bəyanat və hərəkətlərini davam etdirməsinə maneçilik törətməməsi bu ölkədə cəzasızlıq hissinə təkan verib.

"Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddialarını davam etdirməsi, o cümlədən azərbaycanlılara qarşı irqi ədavəti qızışdırması və təşviq etməsi yalnız beynəlxalq hüququn norma və prinsiplərinin pozulması deyil, həm də Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsinin Azərbaycan Ermənistana qarşı iş üzrə 2021-ci il 7 dekabr tarixli müvəqqəti qərarı əsasında üzərinə götürdüyü öhdəliklərə ziddir.

Ermənistanın uydurma tarixi rəvayətlərə və irqçi ideologiyaya əsaslanan qeyri-qanuni ərazi iddialarını reallaşdırmaq məqsədilə təcavüzü zamanı törətdiyi hərbi cinayətlərə, on minlərlə dinc sakini vəhşicəsinə qətlə yetirməsinə, həyata keçirdiyi genişmiqyaslı etnik təmizləməyə və işğal altında olan minlərlə şəhər, qəsəbə və kəndin yerlə yeksan edilməsinə görə məsuliyyət daşıdığının beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana xatırlanması və bunun məsuliyyətini tələb etməsi vacibdir.

Azərbaycan tərəfi beynəlxalq hüququn ciddi pozuntularına görə cəzasızlığa son qoymaq, qanunun aliliyinin təşviqi, regionda sülh, təhlükəsizlik və sabitliyin qurulması, möhkəmləndirilməsi istiqamətində səylərini davam etdirəcək", - deyə Ayxan Hacızadə vurğulayıb.

*Tarix yazan oğullar*

# Ramazan verdiyi sözə sadiq qaldı

*Dünyada hər şey gözəldir, lakin ən müqəddəs duyğu özününkü olduğu üçün Vətəni sevmək, qoynunda boya-başa çatdığın torpağın müqəddəsliyini hiss edib, yolunda canından keçməyə hazır olmaqdır. Bu torpağın Vətən olduğunu dərk edən insanlar onun keşiyində durmağı özünə borc, amal bilirlər. Hər bir insan üçün ən ali hissdir Vətən sevgisi, torpağa məhəbbət. Xalqımızın, torpaqlarımızın azadlığı uğrunda canını qurban verən minlərlə igid, qəhrəman oğlu var. Adları dillərdə dastan olan şəhid oğulları tarix heç zaman unutmayacaq. Hər birinin həyatı bir hekayətdir, cəsurluq, igidlik dastanıdır. Ölümü ilə şəhidlik zirvəsinə yüksələn Ramazanın qısa, lakin şərəfli həyat dastanı deyir ki:*





Ramazan Həmdulla oğlu Hüseynzadə 1 yanvar 2000-ci ildə Cəlilabad rayonunun Muğan kəndində anadan olub. Orta məktəbdə oxuyarkən məktəbin ictimai həyatında fəallığı ilə seçilən şagirdlərdən biri olub. Dərslərini əla və yaxşı qiymətlərlə oxuyub. İdmana böyük maraq göstərib. Fiziki hazırlığını artırmasına daima önəm verib.

Zəhmətkeş bir ailədə böyüyüb boya-başa çatan Ramazan orta məktəbi bitirdikdən sonra əmək fəaliyyətinə başlayıb. Vətənə övladlıq borcunu yerinə yetirmək zamanı çatanda hərbi xidmətə yollanıb, əsgər formasını qürurla geyinib. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" hərbi hissəsində nümunəvi hərbi xidmət keçib. Hərbi hissə komandirləri valideynlərinə təşəkkür məktubları ünvanlayıblar. Nümunəvi xidmətlərinə görə 18 may 2019-cu ildə Daxili Qoşunların "Əlaçı" döş nişanı ilə təltif olunub. 26 iyun 2019-cu ildə vəzifə borclarını layiqincə yerinə yetirdiyinə, şəxsi nümunəsinə, xidmətdə yüksək hərbi intizamına görə, eyni zamanda, hərbi hissənin yaranmasının 16-cı ildönümü münasibətilə fəxri fərmanla mükafatlandırılıb. 4 iyul 2019-cu ildə həqiqi hərbi xidmətini başa vurduqdan sonra Daxili Qoşunların "N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb. Həmin müqaviləyə əsasən 4 iyul 2022-ci il tarixində xidmətini başa çatdıran Ramazan Azərbaycan Ordusu sıralarına daxil olub. Xidmətini Komando hərbi hissəsində davam etdirib. Komando dağ-təlim mərkəzində keçirilən "Komando başlanğıc kursu"nu yüksək nailiyyətlərlə başa vurub.

"Ölərsəm şəhid, qalarsam qazi olacam" demişdi Ramazan. Onun Vətənə, torpağa sevgisi sonsuz idi. Bu sevgisi Ramazanı hərb sənətinə bağlamışdı. Hərbin çətin yollarında uğurla addımlayırdı. Daima təlimlərdə döyüş hazırlığını artırırdı. Xankəndimiz, Xocalımız, Əsgəranımız hələ də Ermənistan silahlı bölmələrinin və separatçı qüvvələrin nəzarətində idi. Ötən il 19-20 sentyabr tarixində rəşadətli Azərbaycan Ordusu əməliyyat tədbirlərini keçirdiyi və uğurla başa çatdırdığı günə qədər. Ramazan düşünürdü ki, düşmən təslim olmalı, tarixi ərazilərimizdən tamamən çıxmalı, suverenliyimizi və ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Gözlənilən an gəlib çatdı. 19-20 sentyabrda ordumuzun peşəkarlığı, fədakarlığı sayəsində Ermənistan ordusunun son tör-töküntüləri də məhv edildi, sağ qalanlar mövqelərini qoyub silah-sursatlarını atıb qaçdılar, düşmən bir daha ağ bayraq qaldırıb təslim oldu. Azərbaycan Ordusu düşmən üzərində parlaq Qələbə qazanaraq, tarixi torpaqlarımızı - Xankəndini, ona yaxın ərazidə yerləşən kəndləri, Xocalını, Əsgəranı, Xocavəndi, Ağdərəni azad edərək, ölkəmizin qanunu, suveren hüquqlarını tam bərpa etdi.



Cəsur döyüşçü, elinin, obasının vətənpərvər oğlu Ramazan da bu əməliyyat tədbirlərinin fəal iştirakçısı oldu. O, Xocalı rayonunun Dəhraz kəndi istiqamətində son damla qanınadək döyüşdü. Düşmənin döyüş mövqelərini və canlı qüvvəsini məhv edənlərin sırasında Ramazan da vardı. Ağır döyüşlərin getdiyi mövqelər bir-bir azad edilərək, ordumuzun nəzarətinə keçdi. Lakin Ramazan bu xoş, sevincli xəbərləri, müjdələri ata-anasına, doğmalarına çatdıra bilmədi. Şəhid oldu. "Ölərsəm şəhid, qalarsam qazi olacam" sözlərinə sadiq qaldı. Ramazan müqəddəs yolu - şəhidliyə gedən yolu özü seçdi... Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hüseynzadə Ramazan Həmdulla oğlu sentyabrın 22-də doğulub boya-başa çatdığı Cəlilabad rayonu Muğan kənd qəbiristanlığında torpağa tapşırıldı. Ramazan Hüseynzadə əslən Lerik rayonunun Orand kəndindəndir. O qısa, lakin şərəfli bir ömür yaşadı - tarix yazdı.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Ramazan Hüseynzadə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə və "Vətən uğrunda" medalına layiq görülüb.

Ramazan atasının, əmisinin döyüş yollarını şərəflə, qürurla davam etdirdi. Atası Həmdulla Hüseynov Birinci Qarabağ müharibəsi veteranıdır. Əmisi Hilal 1994-cü ildə Füzuli uğrunda gedən ağır döyüşlərdə şəhid olub.

Şəhidin qardaşı Eldəniz də atasının, əmisinin şərəfli döyüş yollarını xidmətində uğurla davam etdirərək, İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Xocavənd, Şuşa uğrunda gedən döyüşlərdə, əməliyyat tədbirlərində iştirak edib.

Ramazan silah yoldaşları, şəhid qardaşları kimi torpaq uğrunda vuruşduğu, şəhid olduğu xalqın qan yaddaşında əbədi yaşayacaqdır. Müqəddəs Vətəni şəhidlər daha da müqəddəsləşdirir. Buna görə də onlar and yerimiz, qürur mənbəyimizdirlər!

**Lalə HÜSEYNOVA,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

## Komando bölmələri ilə taktiki-xüsusi hazırlıq üzrə məşğələlər keçirilib

2024-cü ilin hazırlıq planına uyğun olaraq, komando bölmələri ilə taktiki-xüsusi hazırlıq üzrə məşğələlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, beş mərhələdən ibarət məşğələlər zamanı komandolar müxtəlif tapşırıqları yerinə yetiriblər.

İlkin mərhələdə taktiki yerdəyişmə üsulları ilə hədəfə doğru irəliləmə və kəşfiyyat məlumatlarının toplanması üzrə fəaliyyətlər yerinə yetirilib.



Daha sonra hücum yarımqruplarının obyektə yaxınlaşması, basqın əməliyyatının icra olunması və hədəfdə tərtiblənmə tapşırıqları icra edilib.

Sərt iqlim şəraitində və çətin relyefli ərazilərdə keçirilən məşğələlər zamanı komandolar yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyənin "Baykar" şirkəti Kiyevdə zavod tikəcəyini açıqlayıb



Türkiyənin "Baykar" şirkəti Kiyevdə dron istehsalı zavodunun tikintisindən danışıb.

Bu barədə "Reuters" agentliyi məlumat yayıb.

Agentlik şirkətin baş direktoru Haluk Bayraktardan sitat gətirib: "Zavodumuz tikilir... tikintini başa çatdırmaq üçün bizə təxminən 12 ay lazımdır".

Onun sözlərinə görə, şirkət 500-ə yaxın işçini işə götürməyi planlaşdırır.

### ABŞ Polşaya 1,2 milyard dollarlıq hərbi avadanlıq satacaq



ABŞ Dövlət Departamenti Polşaya 1,2 milyard dollar dəyərində radar kəşfiyyat sistemlərinin satışına dair sazişi təsdiqləyib.

Bu barədə Pentaqona bağlı Müdafiə Təhlükəsizliyi Əməkdaşlıq Agentliyi məlumat yayıb.

Sazişə əsasən Polşa ABŞ-dan hava və yerüstü radar kəşfiyyat sistemləri, sensor sistemləri və digər hərbi avadanlıqlar tədarük edəcək.

Mümkün sövdələşmənin NATO müttəfiqinin döyüş qabiliyyətini gücləndirməklə ABŞ-ın xarici siyasət və milli təhlükəsizlik sahəsində maraqlarının həyata keçirilməsinə töhfə verəcəyi qeyd edilir.

### Nigeriya Türkiyədən aldığı iki döyüş helikopterindən istifadə etməyə başlayıb



Təhlükəsizlik problemləri ilə mübarizə aparan Nigeriyada Türkiyədən alınan iki ədəd T129 ATAK döyüş helikopterinin istifadəyə verilməsi mərasimi keçirilib.

Benue əyalətinin paytaxtı Makurdidə Nigeriya Hərbi Hava Qüvvələrinin (NAF) bazasında təşkil edilən mərasimdə vitse-prezident Kaşim Şettima, müdafiə naziri Badaru Abubakar, Türkiyənin Abucadakı səfiri Hidayet Bayraktar, Nigeriya Quru Qoşunları komandanı Taoreed Laqbaca və çoxlu qonaq iştirak ediblər.

Vitse-prezident Kaşim Şettima çıxışında yeni satın alınan helikopterlərin yerləşdirilməsinin həm ölkə daxilində, həm də Qərbi Afrika bölgəsində təhlükəsizlik problemlərinin həllinə əhəmiyyətli töhfə verəcəyinə inamını ifadə edib.

Nigeriya son zamanlar ölkənin müxtəlif bölgələrində bir sıra terror təşkilatlarının, eləcə də silahlı dəstələrin hücumları ilə üzləşir.

Türkiyədən alınan döyüş helikopterlərinin Nigeriyada təhlükəsizlik problemləri ilə mübarizəyə kömək edəcəyi gözlənilir.

### İsrail ordusu Qəzzada 31 girovun həlak olması barədə yaxınlarına məlumat verib



Qəzza zolağında keçirilən hərbi əməliyyat zamanı İsrail hərbçiləri anklavda saxlanılan məhbuslar arasından 31 girovun həlak olması barədə yaxınlarına məlumat verib.

Bu barədə İsrail Müdafiə Qüvvələrinin rəsmi nümayəndəsi Daniel Həqari məlumatı paylaşıb.

Qeyd edək ki, 2023-cü il oktyabrın 7-də HƏMAS yaraqlıları Qəzza zolağından İsrail ərazisinə daxil olaraq 240-dan çox insanı girov götürüb. O vaxtdan bəri sektorda genişmiqyaslı hərbi əməliyyatlar davam edir.

**AZƏRTAC-ın materialları əsasında**

# "Akıncı" hücum PUA-ları döyüş əməliyyatlarında vəziyyətə radikal təsiretmə imkanlarına malikdir

*Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotsuz aviasiya parkı dünyanın bir neçə ölkəsində mövcud olan hücum PUA-larından birini silahlanmasına qəbul etdi. Bu, ordumuzun hərb tarixində imza atılan uğurlu silahlandırma faktlarından biridir.*

Ali Baş Komandan İlham Əliyevin növbədənkənar prezident seçkiləri keçirildikdən iki gün sonra, eyni zamanda, hərbi geyimdə HALE tipli uzun müddət havada qalaraq yüksək hündürlüklərdə vəzifələri icra edəcək və dünyanın yalnız dörd ölkəsində istehsal olunan bu "Akıncı" PUA-larını şəxsən idarə etməsi Azərbaycan və Türkiyəyə qarşı olan qüvvələrə açıq-aşkar göndərilmiş mesajdır.

Odur ki, "Akıncı" PUA-ları Azərbaycanın bəzi ölkələri çəkindirmə silahı olaraq dəyərləndirilməlidir. Bu PUA-lar digər vasitələrlə birlikdə döyüş əməliyyatlarında vəziyyətə radikal təsiretmə imkanlarına malikdir.

Bunu AZƏRTAC-a şərh edən hərbi ekspert Ədalət Verdiyev deyib ki, "Akıncı" hücum pilotsuz uçuş aparatları "Bayraktar TB2" PUA-larının sonrakı nəslidir. Əgər "Bayraktar TB2"-lər taktiki PUA hesab edilirsə, "Akıncı" PUA-ları operativ, taktiki və strateji vəzifələrin yerinə yetirilməsi üçün nəzərdə tutulur. Bu, uça bilən kəşfiyyat-müşahidə PUA-ları Yüksək Hündürlük - Uzun Müddət Havada Qalma (HALE) sinfinə aiddir. Əvvəlki "Bayraktar"lar taktiki və orta hündürlüyə malik, uzun müddət havada qala bilən (MALE), "Akıncı"lar isə HALE sinfinə aiddir. Bu o deməkdir ki, "Bayraktar"lar havada orta yüksəklikdə uzun müddət qala bilirdi. "Akıncı"lar isə havada həm uzun müddət, həm də daha yüksək hündürlüklərdə vəzifələri icra edə bilir.

"Akıncı" PUA-sına bir çox yeni və Türkiyə istehsalı olan modullar, bloklar və sensorlar inteqrasiya



edilib. Onlardan ən vacibi "ASELSAN" şirkətinin istehsalı olan "ASELPOD" optik elektron kamera kompleksidir. Gözdə tuşlama modulu da "Akıncı" PUA-larının lazerlə tuşlanan silahları və sursatları istifadə etmək imkanları yaradır.

Onun sözlərinə görə, hazırlanmasından cəmi 20 ay sonra silahlanmaya qəbul edilən "Akıncı" PUA-sı 2022-ci ildə Azərbaycan Ordusunun iştirak etdiyi Türkiyədə keçirilmiş "EFES-2022" çoxmillətli təlimlərində döyüş atışlarını icra edib. Bundan sonra isə o "Anadolu Qartalı-2022" beynəlxalq taktiki uçuş təlimlərində nümayiş olundu.

Bakıda keçirilmiş "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalında da "Akıncı" PUA-ları həm Türkiyənin, həm də Azərbaycanın hücum aviasiya vasitələri ilə birlikdə möhtəşəm aviaşou təqdim etdilər. Hazırda Azərbaycan PUA-lar ixrac edən ilk ölkələrdən biridir. Ona görə yeni istifadəyə verilən PUA Akademiyasının ərazisində bu vasitələrin sınaqları keçirildi. Sınaqlar zamanı həmin ərazidə Azərbaycanın istifadəsində olan digər PUA-ların da mövcudluğu ondan xəbər verir ki, Azərbaycanda bütün pilotsuz aviasiya operatorlarının təlimi və sertifikatlaşdırılması məhz həmin hərbi hissənin ərazisində təşkil edilib.

### "Akıncı" hücum PUA-ları kifayət qədər böyük imkanlara malikdir

Hərbi ekspert xatırladıb ki, daha əvvəl biz belə hərbi hissənin mövcudluğuna dair məlumatlara rast gəlmədiyimiz üçün bu hərbi hissənin də yeni olduğunu deyə bilərik: "Akıncı" PUA-larının ən mühüm üstünlüklərindən biri bu PUA-da istifadə olunan termal optik kameraların, lazer tuşlayıcılarının və digər sensorların Türkiyənin yerli istehsalı olmasıdır. Qardaş ölkənin "Baykar" şirkəti öz məhsulu olan hər bir vasitəni istənilən müttəfiq ölkəyə tədarük etməkdə sərbəstdir və onun kimsədən asılılığı yoxdur. Bu PUA-lar kifayət qədər böyük imkanlara malikdir. On iki kilometrdən yüksəkdə 24 saatdan çox havada qala bilən "Akıncı" idarəetmə stansiyasından 150 kilometrə qədər məsafədən idarə oluna bilir. Belə PUA-lar TÜBİTAK və "ROKETSAN" şirkətinin istehsalı olan bir sıra sursatlardan, qanadlı raketdən, "Gökdoğan" və "Bozdoğan" ağıllı bombalarından istifadə edə bilir. PUA-nın idarəetmə blokunda üç süni intellekt kompüteri mövcuddur. Bundan başqa, "Akıncı"ya müasir radarlar, kəşfiyyat blokları, infraqırmızı optik vasitələr və sair inteqrasiya olunub. 1350 kiloqram sursat daşıyan PUA-nın qanad açılımı 20 metrdir. Bu PUA-lar həm avtonom uçuş, həm də GPS siqnalları olmadan belə qalxma, enmə, yerüstü hərəkət və avtomatik parklanma imkanlarına malikdir".

"Türkiyə ilə Azərbaycan arasında intensivləşən əlaqələr, "Akıncı" PUA-nın silahlanmamıza daxil edilməsi, azərbaycanlı generalların qardaş ölkənin milli müdafiə naziri Yaşar Gülərlə görüşməsi, xalqımızın yaxın dostu, Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə komissiyasının sədri Hulusi Akarın iki ölkənin orduları arasındakı əməkdaşlığın genişləndirilməsi barədə son bəyanatları onu göstərir ki, onların potensialını birləşdirmək üçün fəaliyyətlər artırılıb. Gələcəkdə ordularımızın istənilən ərazidə və iqlim şəraitində qarşıya qoyulan vəzifələri icra etməsi üçün birgə təlimlərin sayının daha da artırılması nəzərdə tutulur. Son zamanlar Azərbaycan Türkiyə ordu modelinə keçid istiqamətində çox ciddi addımlar atır, yeni hərbi hissələr formalaşdırılır, o cümlədən də yəqin ki, gələcəkdə "Akıncı"ların istifadə olunacağı minimum bir aviasiya eskadrilyası yaradılacaq və onun genişləndirilərək aviasiya hərbi hissəsi səviyyəsinədək qaldırılması tamamilə mümkündür.

Digər tərəfdən isə hesab edirəm ki, Azərbaycanla müttəfiq olan ölkələrin, təşkilatların iki qardaş dövlətin birliyinə marağı daha da artacaq. Bu əməkdaşlıq çərçivəsində Türk Dövlətləri Təşkilatının hərbi, hərbi-texniki sahədə əlaqələrinin yeni mərhələyə qədəm qoymasına şərait yaranacaq", - deyə Ə.Verdiyev vurğulayıb.

## Maraq dünyamız



Dünyanın ən hündür körpüsü - Duge Çində yerləşir. Uzunluğu 1341 metrdir. Körpü yerdən 570 metr yüksəklikdə yerləşir. Ölkənin cənub-qərbində inşa edilən bu körpü Çinin Yunnan və Quizhou bölgələrini birləşdirir. Körpünün hündürlüyü 200 mərtəbəli binaya bərabərdir, 140 milyon dollara başa gəlib.

Körpü Xuanvey və Şuiçeng bölgələri arasındakı dörd saatlıq yolu qısaldıb. Artıq bu məsafəni körpüdən keçməklə bir saata qət etmək mümkündür.

Dünyanın ən hündür 10 körpüsündən 8-i Çində yerləşir.

708 pilləli Guatape qayası Kolumbiyada yerləşir. Əslində, bu, qaya deyil, dünyanın ən böyük daşlarından biridir. Təpələr arasında yüksəlir, buna görə də xüsusilə təsir edici görünür. Təbiət onu kvars, feldispat və mikadan yaratmışdır. Hündürlüyü 220 metrdir. Daşın üçdə iki hissəsi yerin altındadır. Yuxarı qalxmaq üçün 708 addım atmalısan.



Onun yaşının 70 milyon ildən çox olduğu güman edilir. 708 pilləkən qorxuducu bir rəqəm kimi görünsə də, pilləkənlər olduqca kiçikdir və zirvəyə qalxmaq təxminən 10-15 dəqiqə çəkir.

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan taekvondoçusu beynəlxalq turnirdə bürünc medal qazanıb



Taekvondo üzrə Azərbaycan millisinin daha bir üzvü Birləşmiş Ərəb Əmirliklərində keçirilən Fuceyra açıq çempionatında medal qazanıb.

36 kiloqram çəki dərəcəsində mübarizə aparan Ülvü Məmmədov uşaqların yarışında üçüncü yeri tutub.

İdmançı yarımfinaladək Özbəkistan, Qazaxıstan və Birləşmiş Ərəb Əmirliklərini təmsil edən taekvondoçulara qalib gəlib. Finala gedən yolda misirli rəqibinə məğlub olub.

Azərbaycan yığması böyüklərin yarışında 1 gümüş və 3 bürünc medal əldə edib.

## Azərbaycan boksçusu çempionluq kəməri uğrunda döyüşəcək



Beynəlxalq Boks Assosiasiyası (IBA) fevralın 16-da Tacikistanın paytaxtı Düşənbədə "IBA Çempionlar Gecəsi" təşkil edəcək.

Turnirdə Azərbaycan boksçusu Alfonso Dominges (86 kiloqram) də qüvvəsini sınayacaq.

"Tokio-2020" Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı çempionluq kəməri uğrunda döyüşdə rusiyalı Şarabutdin Atayevlə üz-üzə gələcək.

Görüşün mükafat fondu 500 min ABŞ dollarıdır. Qalib boksçu 350 min dollar, məğlub olan idmançı isə 150 min dollar qazanacaq.

Alfonso Dominges və Şarabutdin Atayev əvvəllər 3 dəfə qarşılaşıb. Bunların birində Azərbaycan təmsilçisi, ikisində isə Rusiya boksçusu qalib gəlib.

## Azərbaycan millisinin Avropa çempionatında iştirak edəcəyi heyəti bəlli olub

EUROPEAN WEIGHTLIFTING CHAMPIONSHIPS
SOFIA 2024

Ağırlıqqaldırma üzrə Azərbaycan millisinin Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçiriləcək Avropa çempionatı üçün heyəti bəlli olub.

43 ölkədən 402 atletin (202 kişi + 200 qadın) iştirak edəcəyi yarışda ölkəmizi kişilərdə 8, qadınlarda isə 1 idmançı təmsil edəcək.

Kişilərdə İsa Rüstəmov, Tehran Məmmədov (hər ikisi 67 kiloqram), Ömər Cavadov (73 kiloqram), Ravin Alməmmədov, Füqan Əliyev (hər ikisi 81 kiloqram), Nurlan Məmmədzadə (89 kiloqram), Əli Şükürlü (102 kiloqram), Dadaş Dadaşbəyli (109 kiloqram) mübarizə aparacaq. Qadınlarda isə Nazilə İsmayılova (45 kiloqramda) qüvvəsini sınayacaq.

Qeyd edək ki, yarış 12-20 fevral tarixlərində keçiriləcək.

## Azərbaycanın daha bir güləşçisi Avropa çempionatını buraxacaq



Azərbaycanın daha bir güləşçisi Ruminiyanın paytaxtı Buxarestdə keçiriləcək Avropa çempionatında iştirak etməyəcək.

130 kiloqram çəki dərəcəsində mübarizə aparan yunan-Roma güləşçisi Sabah Şəriəti yarışı buraxacaq.

Məşqçilər heyəti fevralın 12-19-da keçiriləcək qitə çempionatında bu çəkidə daha hazırlıqlı olan Beka Kandelakiyə şans verəcək.

Daha əvvəl sərbəst güləşçi Hacı Əliyev və yunan-Roma güləşçisi Eldəniz Əzizlinin Avropa çempionatına qatılmayacağı bəlli olub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 30
Nüsxə 4646